# Qərbi Azərbaycanın zəngin alban-xristian irsi erməni-daşnak əsirliyində - nələr var imiş...

**"Qərbi Azərbaycanın daş yaddaşı" rubrikasında indiki Hayastan ərazisindəki türk-xristian, qıpçaq irsindən danışacağıq. Azərbaycan Albaniyasına daxil olan Qərbi Azərbaycan ərazisində çox zəngin türk-xristian irsi var ki, onlar kütləvi olaraq erməniləşdirilib. Qədim türk-oğuz yurdu Qərbi Azərbaycandakı xristianlıq dövrü tarixi irsimiz barədə tədqiqatçı Əziz Ələkbərli və digər tədqiqatçılar tarixi mənbələrə istinadən çox maraqlı faktlar üzə çıxarıblar.**

İrəvan Gümrü şosse yolunun üstündə yerləşən qədim türk-xristian məbədi olan Kasax Bazilikası bütün əlamətlərinə (tarixi, arxeoloji, memarlıq) görə Qərbi Azərbaycan ərazisində ən qədim məbədlərdən biridir və onun inşa tarixi V yüzilə aid edilsə, bir çox mütəxəssislər tərəfindən politeizm dövrünün yadigarı kimi xarakterizə edilir.

Tədqiqatçılar yazır ki, üçnüfli bazilika şəklində olan məbəd 1947 - 1948 - ci illərdə Ermənistan Memarlıq Abidələrinin Mühafizəsi Komitəsi tərəfindən bərpa olunub və ona bir sıra erməni və xristian elementləri əlavə olunub. Abidənin yerləşdiyi yerin istər Abaran, istərsə də daha qədim Kasax adı qədim türk etnonimlərindən törəmədir və bu ərazilərin hələ miladdan əvvəlk dövrlərdən türklərin vətəni olması haqqında mənbələrdə çoxlu məlumatlar vardır. Belə ki, mixi yazılı kitabələr, eləcə də antik müəlliflər məhz bu ərazilərin sakini olan sak-skif- massaget tayfalarının tez-tez Urartuya yürüşləri etməsindən bəhs edir. Abaran rayonuna ilk ermənilərin gəlişi 1829-1830-cu illərə təsadüf edir. Həmin vaxt 56 erməni ailəsi Türkiyədən köçürülərək burda məskunlaşdırılıb.

Tarixçilərə görə, Gərni məbədi də bu abidələrdən biridir. Gərnibasar mahalının dağlıq hissəsində, Gərni çayının sağ sahilində Gög dağının ətəyində Ellər rayonunun Baş Gərni (03.01.1935-ci ildən Qarni) kəndində yerləşən Gərni bütpərəst məbədi I-II əsrə aiddir. Tədqiqatçılara görə, 1945-ci ildə məbəddə rəssam Martiros Saryan tərəfindən kəşf edilən yunan yazısında "Günəş Trdat" tərəfindən əsasının qoyulduğu qeyd olunur. Məbəd XVII əsrdə zəlzələ nəticəsində dağılıb, 1969-1974-cü illərdə bərpa edilib. Xristianlığın qəbul edilməsindən sonra saray kimi fəaliyyət göstərib. Məlumatlara görə, hazırda erməni bütpərəstlər məbədi mütəmadi ziyarət edib ibadətlərini yerinə yetirirlər. Hər il 136.000 turist məbədi görməyə gəlir. Məbədin divarlarında 9-10-cu əsrlərdə qazınmış ərəbcə yazılar da tapılıb. Məlum olduğu kimi, bütpərəst məbədi də qədim türklərə məxsusdur. Düzdür, bu məbədə də ermənilər iddia edir.

Qərbi Azərbaycanın Üçkilsə rayonu ərazisində, Üçkilsə kilsəsindən şimal-şərqdə, Üçkilsə və Müqəddəs Ripsime məbədlərinin arasında yerləşən ərmən-türk xristian məbədi olan Saqakat məbədi III əsrə aid edilir. Bu barədə hazırlanan Vikepediya məqaləsində qeyd edilir ki, III əsrin sonlarında Ərməniyyəyə qaçan bakirə Ripsime öz rəfiqələri və dayəsi Qayana ilə Ərməniyyənin paytaxtı Vağarşabaddakı şərab anbarında gizləniblər. Lakin onlar Ərməniyyə çarı Trdat tərəfindən tapılıb qətlə yetirildikdən sonra Maarifçi Qriqorinin təşəbbüsü ilə Ərməniyyədə tikilən ilk üç sovmədən biri də məhz həmin anbarın yanında ucaldılıb 483-cü ildə həmin sovmə daş kilsə ilə əvəzlənmiş, sonrakı yüzillərdə dəfələrlə bərpa olunaraq, ona yeni tikililər əlavə edilib.

Məbədin Saqakat (Saq + ak // ağ + at, yəni Ağ saqqallar) adı onun, Qərbi Azərbaycanın ən qədim sakinlərindən olan və Azərbaycan türklərinin etnogenezində mühüm rol oynamış saklara məxsus olduğunu birmənalı olaraq sübut edir. Məbədin ətrafında tarix boyu türk tayfaları yaşamış, bu ərazilərə ermənilərin ilk gəlişi son əsrlərə təsadüf edib. Bu barədə də tədiqatçılar yazıb. Bu məbəd UNESCO-ya daxil edilib.

Nərədüz abidələri də türk xristian irsinin bir örnəyidir. Göyçə mahalının Kəvər (13 aprel 1959-cu ildən etibarən Kamo) rayonunun Nərədüz (ermənilər bu adı Noradus kimi qeyd edirlər) kəndində alban memarlıq abidələri kompleksi barədə də danışmaq yerinə düşərdi. Kompleksə erkən orta əsrlərə aid monastır və orta əsrlərdən XVII-XVIII əsrlərə qədər dövrü əhatə edən müsəlman və xristian məzarları daxildir.

Avan Bazilikası Qərbi Azərbaycanın Qırxbulaq mahalında, Ellər rayonunun Avan kəndində, İrəvandan Baş Gərniyə gedən yolun üstündə yerləşir və qədim türk xristian məbədir.

Digər bir abidə isə Maqasberd qalasıdır. Qərbi Azərbaycanın Şörəyel mahalının Düzkənd rayonu ərazisində, Araz çayının sol qolu olan Arpaçayın sağ sahilində qədim türk qalası olan Maqasberdə də təəssüf ki, erməniləşdirilib.

Şirvancıq məbədi də Qərbi Azərbaycanın Şörəyel mahalının Ərtik rayonu ərazisində, Alagöz dağının Qərb yamacında, Şirvancıq kəndində türk-xristian məbədidir. Mə-



bəd V əsrə aid bazilka tavanını çıxmaq şərti ilə ilkin görünüşünü saxlayıb. Xarici divarlarının ölçüsü 22.4x8.2 m-dir. Məbədin yerləşdiyi əraziyə ilk ermənilər XIX əsrin əvvəllərində rus işğalından sonra köçürülüb.

Yerəruyk məbədi də Qərbi Azərbaycanda, Şörəyel mahalının Agin rayonu ərazisində, Arpaçayın sol sahilində yerləşən qədim türk məbədidir. Məbədin bütün yan divarları salamat qalmış, lakin tavanı, üçnefli zalın arakəsmələri və s. tikililər uçub dağılmışdır. Tədqiqatçılar yekdil olaraq məbədin bölgədə xristianlığın ilk çağlarına aid olması və onun IV - V yüzillərdə tikilməsi qənaətindədirlər.

Məbəd erkən orta əsrlər alban bazilikaları, xüsusilə Azərbaycan respublikasının Qax rayonu ərazisindəki Qum balzikası ilə xeyli oxşar xüsusiyyətlərə malikdir. Yerəruyk monastırının yerləşdiyi ərazi tarixən türk boylarının anayurdu olmuşdur. Şörəyel // Şirək - el adı da bu yerlərin qədim sakinləri olan şirak türk tayfasının adı ilə bağlıdır.

Məbədin yerləşdiyi əraziyə ermənilərin ilk kütləvi axını XIX yüzilin əvvəllərində bölgənin Çar Rusiyası tərəfindən işğalından sonra başlamışdır.

Abidə 25 avqust 1995-ci ildə Ermənistandakı xristian abidəsi kimi UNESCO-nun Ümumdünya İrsinin Sınaq Siyahısına salınıb.

Masdərə məbədi və ya Müqəddəs Vəftizçi İohann kilsəsi Qərbi Azərbaycanın Talın rayonunun Masdərə kəndində Masdərə çayı kənarında V - VII yüzillərə aid qədim ərmən - türk məbədidir.

Günbəzli məbəd tipində inşa edilmiş məbəd öz adını Masdərə toponimindən almış, "Masdərə" toponimi isə "Masların dərəsi", "Mas dərəsi" anlamında "mas" və "dərə" sözlərindən yaranmışdır. Maslar qədim dövrlərdən (təxminən e.ə. VIII əsrdən) Cənubi Qafqazda, o cümlədən Qərbi Azərbaycanda məskunlaşmış sak tayfalarının bir qoludur. Masların adı müasir Azərbaycan Respublikası və Qərbi Azərbaycan ərazisində Masallı, Masazır, Maştağa, Masis, Mesxet, Xaçmas (Xaçmaz) toponimlərində də qalmışdır. Bina xaçvari quruluşa malik olub, mərkəzi günbəzli quruluşa malikdir. Qeyri adi memarlıq quruluşuna malik olan bina bir çox özəlliklərini itirərək günümüzə çatmışdır. Məbədin pəncərələrinin ətrafı gözəl həndəsi və nəbati naxışlarla işlənmiş kəmərlə əhatələnmişdir. SSRİ dövründə, 1940-cı ildə məbəddə ermənilər tərəfindən aparılmış "bərpa" işləri zaman onun ilkin memarlıq xüsusiyyətlərinə bəzi dəyişiklikləri edilməklə və ətrafında xaçkarlar yerləşdirilməklə məbəd erməniləşdirilmişdir.

Müqəddəs Ripsime məbədi isə Üçkilsə rayonu ərazisində, Üçkilsə məbədindən təxminən 1 km şərqdə türk xristian məbədidir ki, təəssüf, ermənilər bu məbədə də sonradan saxta erməni elementləri əlavə ediblər.

Qərbi Azərbaycandakı Kasax Bazilikası,Gərni bütpərəst məbədi, Saqakat məbədi, Nərədüz alban memarlıq kompleksi, Avan, Maqasberd qalası, Şirvancıq məbədi, Yerəruyk məbədi, Masdərə məbədi, Ripsime kimi qədim türk xristian məbədləri barədə sizə məlumat verdik. Amma indiki Hayastanda yerləşən türk xristian məbədləri bununla bitmir. Növbəti yazılarımızda barəsində danışmadığımız abidələrdən də söz açacağıq. Bu gün orada erməni saxtakarlığına məruz qalan minlərlə abidəmiz var ki, onların ruhunda türklük yaşayır, simaları dəyişdirilsə də, mahiyyətləri yerindədir. Əlbəttə, bu istiqamətdə tədqiqatlar aparan, təhlil edib yazan alimlərimiz az deyil. İnanırıq ki, Qərbi azərbaycanlılar öz evlərinə, doğma yurdlarına qayıtdıqdan sonra bu abidələrə də sahib duracaqlar...

***İradə SARIYEVA***